Ədəbiyyat qəzeti. - 2025
24 yanvar (№3).- S.27.

# Böyük Qayıdışın Xankəndi gerçəkliyi

Tanınmış yazıçı-publisist Vasif Quliyevin "Xankəndi - Xanın kəndi" adlı məlumat kitabçası məcburi köçkünlərin yeni salınmış yaşayış məntəqələrinə geri qayıdışı üçün məlumatlandırma, təbliğat-izahat və təşviqat işlərinin aparılması nəzərdə tutulan tədbirlərin icrası çərçivəsində Azərbaycan Respublikası Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun sifarişi ilə hazırlanıb.







Yeni nəşr ölkə başçısının "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın Tədbirlər Planının prioritet istiqamətləri çərçivəsində əbədi-əzəli şəhərimiz Xankəndinin tarixini hər yönü ilə əks etdirir.

Məlumat kitabçası Azərbaycan və ingilis dillərində çap edilib.

*Sərvaz*